## AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN ADINI DAŞIYAN "RO-PAX" TİPLİ GƏMİ-BƏRƏ

2022 - ci il aprelin 28 - də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan "Ro-Pax" tipli "Zərifə Əliyeva" gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak edib.

Gəmi-bərənin layihəsi ötən ilin əvvəlində istismara verilən "Ro-Pax" tipli "Azərbaycan" gəmi-bərəsi ilə eynidir. Otuz nəfərlik heyət üzvünün idarə etdiyi gəmi-bərə ilə eyni vaxtda 100 sərnişin, sistern tipli 56 vaqon və ya 50 yük avtomobili/TIR daşımaq mümkündür. "Azərbaycan" və "Zərifə Əliyeva" gəmi-bərələri bu göstəricilərinə görə Xəzər hövzəsində istismar olunan digər gəmi-bərələrdən daha üstündür. Dünyanın aparıcı istehsalçılarının müasir avadanlıqları ilə təchiz olunan gəmidə yük lifti, helikopter meydançası, dalğalı havada gəminin sabitləşdirilməsi sistemi, dartıcı lokomotivlər vardır.




## Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi

1946-cı ildə Elmi-Tədqiqat Göz xəstəlikləri İnstitutu fəaliyyətə başlamışdır. 2002-ci ildən ETGXİ akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi olaraq fəaliyyət göstərməkdədir. 2009-cu il 22 may tarixində cənab prezident İlham Əliyevin iştirakı ilə akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin yeni binasının açılışı olmuşdur.



Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi beynəlxalq standartlara cavab verən müasir diaqnostik avadanlıq-larla təchiz olunmuşdur. Mərkəzdə Oftalmologi-yanın bütün sahələrini əhatə edən şöbələr və yüksək ixtisaslı mütə-xəssislər fəaliyyət gös-tərir. Mərkəzdə “Konsul-tativ poliklinika”, “Qlau-koma”, “Katarakta cərra-hiyyəsi”, “Buynuz qişa-nın cərrahiyyəsi və transplantasiyası”, “Eksimer-lazer”, “Gözün yoluxucu xəstəlikləri”, “Uşaqlarda gözün patologiyası”, Tor qişanın və görmə sinirinin patologiyası”, “Şəkərli diabetin göz fəsadları”, “Gözün vitreoretinal cərrahiyyəsi”, “Lazer cərrahiyyəsi”, “Gözün zədəsi”, “Okuloplastik və rekonstruktiv cərrahiyyə”, “Onko-oftalmoloji”, “Cərrahiyyə-əməliyyat bloku”, “Şüa-diaqnostikası”, “Gözün tibbi ekspertizası” şöbələri fəaliyyət göstərir.

Azərbayanda yalnız akademik Zərifə Əliyeva adına Milli Ofalmologiya Mərkəzində “Uşaqlarda gözün patologiyası” şöbəsi yaradılmışdır. Şöbədə yüksək ixtisaslı təcrübəli həkim və tibb işçiləri tərəfindən uşaqların rahat müayinəsi və müalicəsi həyata keçirilir.

Mərkəzin Eksimer-lazer şöbəsində gözün refraktiv qüsurlarının (miopiya, hipermetropiya, astiqmatizm), keratokonus xəstəliyinin diaqnostikası və müalicəsi ən müasir diaqnostik və cərrahi avadanlıqlarla həyata keçirilir.

Akademik Zərifə Əliyeva adına Milli Ofalmologiya Mərkəzinin “Şəkərli diabetin göz fəsadları” şöbəsində xəstələrin erkən və dəqiq diaqnostikası, lazer və cərrahi müalicəsi yüksək ixtisaslı mütəxəssislər tərəfindən ən son texnologiyalı avadanlıqlarla aparılır.

Mərkəzdəki digər şöbələr kimi “Cərrahi əməliyyat bloku” da beynəlxalq standartlara cavab verən Amerika, Yaponiya, Almaniya istehsalı olan cərrahi avadanlıqlarla təchiz olunmuşdur. Şöbədə yüksək ixtisaslı, təcrübəli oftalmoloji və anestezioloji mütəxəssis heyyəti tərəfindən gözün istənilən patologiyasının cərrahi müalicəsi həyata keçirilir.

http://eye.gov.az/

## Akademik Zərifə Əliyeva adına lisey




Akademik Zərifə Əliyeva adına lisey Bakı şəhəri Yasamal rayonunda yerləşir. Lisey 2008-ci il 28 aprel tarixində Heydər Əliyev Fondunun dəstəyi ilə görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın anadan olmasının 85 illik yubileyi ərəfəsində istifadəyə verilmişdir. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmişdir.

Lisey Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən dövlət qurumudur və burada təhsil Azərbaycan və rus dillərindədir.

Qısa zaman kəsiyində lisey uğurları ilə qabaqcıl təhsil müəssisələrindən birinə çevrilmişdir. Liseydə təhsil IX-XI sinifləri əhatə edir. Siniflərin təmayüllər üzrə komplektləşdirilməsi şagirdlərin maraq göstərdikləri sahə üzrə daha dərin bilik almalarına səbəb olur. Liseydə fundamental və tətbiqi biliklərin tədrisi, zehni inkişafa dəstək olan bilik yarışlarının keçirilməsi, şagirdlərin sosial fəallığının təmin edilməsi, vətəndaşlıq tərbiyesi, ölkədaxili və beynəlxalq olimpiadalarda iştirak, dünya ölkələrindəki və eləcə də ölkəmizdəki nüfuzlu ali məktəblərdə təhsil almaq əsas prioritet məsələlərdən hesab olunur.

Akademik Zərifə Əliyeva adına liseydə peşəkar kollektiv fəaliyyət göstərir. Liseydə pedaqoji heyətin tərkibində üç fəlsəfə doktoru, iki dissertant, dörd Əməkdar müəllim, on altı “Ən yaxşı müəllim” adını almış, Qabaqcıl təhsil işçisi adına layiq görülmüş, fəxri fərmanla təltif olunmuş müəllimlər var. Bütün pedaqoji heyətin qarşısında duran başlıca vəzifə şagirdlərdə müstəqil düşünmək, mühakimə yürütmək, nəticə çıxarmaq, tədqiqat aparmaq, sağlam rəqabət apara bilmək və ən əsası dünyaya açıq bir insan kimi yetişmələri üçün zəruri olan bacarıq və vərdişləri formalaşdırmaqdır. Lisey 2009-cu ildən Təhsil Nazirliyi tərəfindən həyata keçirilən “Elektron məktəb”pilot layihəsinə qoşulub. 2014-cü ildə “Ən yaxşı ümumtəhsil məktəbi ” adına layiq görülmüşdür.

Liseydə Qiymətləndirmə sektoru fəaliyyət göstərir. Şagirdlərin inkişaf dinamikasını izləmək və düzgün nəticə çıxarmaq üçün müxtəlif tipli ölçmə vasitələrindən istifadə olunur. Müəllimlər şagirdlərin tədris olunan bilik və bacarıqlara yiyələnərək həm elmli, həm də dünyagörüşlü dünya insanı kimi yetişmələri üçün çalışırlar. Müəllimlər şagirdlərin düşünmə qabiliyyətini dərinləşdirən, tənqidi və yaradıcı təfəkkürü formalaşdıran tapşırıq növlərindən istifadə edirlər.

https://z-aliyeva.edu.az/az/about/

**BAKININ BİNƏQƏDİ RAYONU ƏRAZİSİNDƏ**

**ZƏRİFƏ ƏLİYEVA ADINA PARK**

Zərifə Əliyeva adına istirahət parkının sahəsi 6,2 ha, ətrafındakı zeytun bağlarının sahəsi isə 6,0 ha-dır. Parkın tikintisi 2000-ci ildə aparılmış, açılışında Ulu Öndər Heydər Əliyev iştirak etmişdir. 2008-ci ildə parkda yenidənqurma işləri aparılmış və açılışında möhtərəm Prezidentimiz cənab İlham Əliyev iştirak etmişdir.

Parkda Akademik Zərifə Əliyevanın abidəsi və onun ətrafında fəvvarə, həmçinin bir ədəd idman meydançası vardır.

İstirahət parkında Azərbaycanın müxtəlif iqlim qurşaqlarının faunasına aid 2000 ağac və 4000 yaşıl kol əkilib.

6-cı mikrorayon, Cavadxan küçəsi 3 ünvanında yerləşir.

http://binegedi-ih.gov.az/az/page/483.html



## NAXÇIVAN ŞƏHƏR POLİKLİNİKASI

1922-ci ildə Naxçıvan şəhər xəstəxanası nəzdində ambulatoriya kimi fəaliyyətə başlamışdır. 1936-cı ildən həmin xəstəxana yanında poliklinikaya çevrilmişdir. 1985-ci ildən A. Cəlilov küçəsində tikilmiş yeni ixtisaslaşdırılmış binada yerləşir. Poliklinikada cərrahiyə, rentgen

şöbələri, I-II terapiya şöbəsi və kabinələri, stomatologiya, oftalmologiya, lor, nevrologiya, fizioterapiya, laboratoriya kabinələri, profilaktika-müayinə və yeniyetmələr kabinələri fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu ildə Naxçıvan Muxtar Respublikasını 75 illik yubileyi ilə əlaqədar Naxçıvanda olarkən poliklinikaya gəlmiş, onun işi ilə tanış olmuşdur. 1999-cu ildın akademik Zərifə Əliyevanın adınadır. Burada onun həyat və fəaliyyətini əks etdirən muzey yaradılmışdır.[1]

https://az.wikipedia.org/wiki/Nax%C3%A7%C4%B1van_%C5%9E%C9%99h%C9%99r_Poliklinikas%C4%B1




## UKRAYNANIN İRPEN ŞƏHƏRİNDƏ XARİCİ DİL TƏMAYÜLLÜ 12 NÖMRƏLİ I-III DƏRƏCƏLİ ŞƏHƏR ÜMUMTƏHSİL MƏKTƏBİ

Paytaxt Kiyevdən cəmi 30 kilometrlik məsafədə yerləşən məktəbdə əksər Avropa xalqlarının dillərində, fars, ərəb, yapon və o cümlədən Azərbaycan dilində

tədris aparılır. 2015-ci ildən azərbaycanlı akademikin adını daşıyan təhsil ocağı bu baxımdan birinci dərəcəli linqvistik məktəb sayılır.

2400 şagirdin təhsil aldığı məktəbdə yerli ukraynalılarla yanaşı, burada daimi və müvəqqəti yaşayan müxtəlif millətlərdən olan uşaqlar da təhsil alır. İrpen şəhərinin mərkəzi parklarından biri də 2003-cü ildən Zərifə Əliyevanın adını daşıyır. 2004-cü ildə isə burada görkəmli akademikin büstü ucaldılıb. Bundan başqa, parkın yaxınlığındakı şəhərin mərkəzi küçələrindən biri də akademikin adını daşıyır. Azərbaycanlı akademikin adını daşıyan park elə birbaşa eyniadlı küçəyə açılır. Parkda ilin müxtəlif mövsümündə yerli sakinlər və şəhərin qonaqları ziyarətçi olur, istirahət edirlər.

Qeyd edək ki, sözügedən küçə həmçinin akademik Zərifə Əliyevanın adını daşıyan parkla məktəbi də birləşdirir.

https://azertag.az/xeber/Irpen_seherindeki_umumtehsil_mektebine_akademik_Zerife_Aliyevanin_adi_verilib-850980









## Zərifə xanım Əliyevanın 80 illiyinə

## həsr edilmiş poçt markası

28 Aprel, 2003. Akademik Zərifə Əliyevanın 80 illiyi.

X. Mirzəyevin sənət əsəridir.

Marka mellə ağardılmış yapışqanlı kağız üzərində offset üsulu ilə çap olunmuşdur.

Perforasiya: 15.0.

Markanın ölçüsü: 40x28 mm.

Vərəqdə 10 (2x5) marka var.

Çox rənglidir. Ukraynada "Poligraphcombinat" tərəfindən çap olunmuşdur.

N 641 - 3000 man. Markanın üzərində akademik, pedaqoq, oftalmoloq Zərifə Əliyevanın portreti əks olunmuşdur.

Markanın bu buraxılışı Zərifə Əliyevanın 80 illik yubileyinə həsr olunmuşdur. Tirajı: 25000. .




http://anl.az/el/emb/ZE/index.htm

## Zərifə xanım Əliyevanın 85 illiyinə həsr edilmiş poçt markası

28.04.2008. Akademik Zərifə Əliyeva. 85 illiyi.

Rəssam X. Mirzəyev Çap növü ofset, təbaşirli, yapışqanlı marka kağızı, çərçivəli dişi 14,0.

Markanın ölçüsü 28x40 mm.

Blokun ölçüsü 105x140.

Dördrəngli. Çap olunub "Belarusskiy Dom Peçati", Belarusiya.

Tiraj: 12280 ədəd blok və 3070 vərəq.

http://anl.az/el/emb/ZE/index.htm




**ZƏRİFƏ XANIM ƏLİYEVANIN 90 İLLİYİNƏ**

**HƏSR EDİLMİŞ POÇT MARKASI**

28.04.2013. Akademik Zərifə Əliyevanın 90 illiyinə həsr olunmuş marka.

Rəssam X. Mirzəyev.

Çap növü ofset, təbaşirli, yapışqanlı marka kağızı, çərçivəli dişi 14,0.

Markanın ölçüsü : 32 x 52 mm.

Suvenir markanın ölçüsü: 95 x 102 mm.

Tiraj: 7000 suvenir səhifə.

http://anl.az/el/emb/ZE/index.htm

